# Gələcəyi Azərbaycanın xeyrinə dəyişdirən lider



Heydər Əliyevin böyüklüyü onun geridə qalmış tarixi proseslərdən lazımı nəticələr çıxarmağı və sabahımızın daha firavan, daha gözəl olması üçün gərəkli olan addımları atmağı bacarması idi. O, Azərbaycanın dövlət müstəqilliyinə qurtuluş gətirəndə də, Yeni Azərbaycan Partiyasının ölkə siyasi arenasına qatılmasını təmin edəndə də və 2003-cü il oktyabrın 1-də Azərbaycan xalqına tarixi müraciətini ünvanlayanda da məhz dünənimizi və sabahımızı əhatəli şəkildə götür-qoy etmişdi.

(ardı 3-cü səhifədə)

*Azərbaycan 1993–2003-cü illərdə öz inkişaf və sabitlik dövrünü yaşayırdı. Bu, müstəqilliyimizin ikinci dövrü idi. Bir daha qayıdıram müstəqilliyimizin ilk illərinə. Əgər o vaxt Heydər Əliyev kimi dahi şəxsiyyət – millətə canı, qanı ilə bağlı olan insan hakimiyyətdə olsaydı, biz o bəlalarla üzləşməyəcəkdik.*

**İlham ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

# Gələcəyi Azərbaycanın xeyrinə dəyişdirən lider




**(əvvəli 1-ci səhifədə)**

… Qatar dövlət müstəqilliyini Azərbaycanla eyni dövrdə bərpa etmiş ölkənin ərazisində gedirdi. Pəncərədən ətrafa boylanırdım. Nəinki Bakıda, Gəncədə, Sumqayıtda, heç ucqar rayonlarımızda da şahidi olduğumuz tikinti-quruculuq, inkişaf prosesindən əsər-əlamət görünmürdü. Hətta, rayon və şəhərlərin bu görkəmdə olmasına inana bilmirdim.

Bu təəssüratları özüm özümlə bölüşür, ölkəmizin geridə qalan son otuz ildəki faktlarını xatırlamaq istəyirdim. Mən geridə qalan faktları xatırlamaq istəyəndə isə əsas "fakt" qabaqdan gəldi. Yəni bizim getdiyimiz qatarla üz-üzə gələn həmin ölkənin sərnişin qatarını gördüm. Görməsəydim yaxşıydı. Lokomotiv müasir olsa da, bütün vaqonlar bizim 30 il əvvəlki dəmir yolu standartlarımız səviyyəsində idi.

Yol yoldaşlarımızdan birini pəncərənin qabağına çağırdım. Müasir elektrovozun dartıb apardığı köhnə vaqonlara baxan həmsöhbətimin gözləri yol çəkdi və handan-hana dilə gəldi: – Allah Heydər Əliyevin də, İlham Əliyevin də atasına rəhmət eləsin!

Hər qatar öz istiqamətində getdi. O birisini bilmirəm, biz irəli gedirdik. Bizi Prezident İlham Əliyevin uğurla, səbr, təmkin və prinsipiallıqla davam etdirdiyi Heydər Əliyev siyasəti, ulu öndərin tərəqqi yolu irəli aparırdı.

…Yadımdadır, 2014-cü ildə İstanbuldakı Lütfi Kirdar adına möhtəşəm tədbirlər sarayında böyük bir beynəlxalq simpoziumda iştirak edirdik. Gürcüstandan olan professor öz çıxışında Azərbaycan həqiqətlərinə də toxundu və dedi ki, Xəzər nefti və qazı bu gün Azərbaycanı elə inkişaf etdirib ki, beş il qabaq bu ölkənin paytaxtında olmuş əcnəbi indi yenə də oraya gedəndə az qala Bakını tanıya bilmir.

Türkiyəli professor Hayretdin İvgin isə həmin fikirlərə bir gün sonrakı çıxışında cavab vermişdi: "Azərbaycanın uğurlarını təkcə neft və qazla bağlamaq qətiyyən mümkün deyil. Çünki bu gün məhrumiyyət və məşəqqətlər içərisində yaşayan neft ölkələri az deyil. Azərbaycanın uğurlarını Heydər Əliyevin siyasi müdrikliyi və uzaqgörənliyi təmin etmişdir".

Bu faktları ona görə yada saldım ki, oktyabrın 3-ü ulu öndər Heydər Əliyevin müstəqil Azərbaycanda ilk dəfə prezident seçildiyi gündür. Biz məmnunuq ki, bu il həmin tarixin yada salınması Prezident İlham Əliyevin 2023-cü ilin Azərbaycanda "Heydər Əliyev ili" elan edilməsi barədə Sərəncam imzaladığı günlərə təsadüf edir.

Yeri gəlmişkən, mən bir məqamı da xatırlatmaq istəyirəm. Belə ki, son 15-20 ildə ölkəmizə gələn əcnəbi siyasətçilər də, cənab Prezidentin xaricdə görüşdüyü dövlət və hökumət rəsmiləri də Azərbaycanın indiki inkişafının təməlində məhz Heydər Əliyev siyasi kursunun dayandığını dönə-dönə dilə gətirirlər.

Prezident İlham Əliyev isə həmin faktı bu şəkildə dilə gətirir: "Əgər o vaxt xalqın tələbi ilə Heydər Əliyev hakimiyyətə gəlməsəydi, Azərbaycanın taleyi çox ağır, acınacaqlı ola bilərdi... 1993-cü il dönüş ili idi. İlk növbədə, qanunsuz silahlı birləşmələr tərk-silah edildi, ordu quruculuğunda ciddi addımlar atıldı, dövlətçiliyin əsasları qoyuldu, sabitlik təmin edildi. 1995-ci ildə müstəqil Azərbaycanın Konstitusiyası qəbul olundu. Ölkəmizdə çox ciddi siyasi islahatlar aparılmağa başlandı".

Dövlət başçımız əlavə edir ki, biz gələcəkdə də Heydər Əliyev yolu gedəcəyik, müstəqil siyasət aparacağıq. Xalqın iradəsi əsasında irəli gedəcəyik.

Prezident İlham Əliyevin İkinci Qarabağ müharibəsindəki şanlı Qələbəmizin elan edilməsindən dərhal sonra Fəxri xiyabana gedərək, ulu öndərin məzarını ziyarət etməsi isə gənclərimiz üçün mükəmməl bir dərs və örnək nümunəsi idi. Çünki biz öz ərazi bütövlüyümüzün bərpasına məhz Heydər Əliyev siyasi kursuna sədaqət nəticəsində nail olmuşuq.

**İttifaq MİRZƏBƏYLİ,**
**"Xalq qəzeti"**